**Rövşən QURBANOV**
Azərbaycan Milli Konservatoriyasının
"İnstrumental muğam" kafedrasının baş müəllimi
Ünvan: Yasamal r, Ə.Ələkbərov küç. 7
E-mail: rovshen.tar@mail.ru

# XALQ ÇALĞI ALƏTLƏRİ ANSAMBLLARININ TƏŞƏKKÜLÜ VƏ FORMALAŞMASI

***Xülasə**: İllərlə dəyişən, təkmilləşən və bugünkü formasını alan xalq çalğı alətlərimiz mənəvi həyatımızın ayrılmaz hissəsidir. Təqdim olunan məqalənin əsas məqsədi milli alətlərimiz əsasında yaranan ansambllar haqqında məlumat vermək, onların təşəkkülü, formalaşması və inkişaf yollarına nəzər salmaqdır. Burada 1941-ci ildə Ü.Hacıbəylinin təşəbbüsü ilə böyük tarzən Əhməd Bakıxanov tərəfindən yaradılmış ilk peşəkar xalq çalğı alətləri ansamblından, sonralar Əhsən Dadaşov, Baba Salahovun yaratdıqları ansamblardan, eləcə də qədim musiqi alətləri ansambllarından və çağdaş dövrümüzdə yaranan ansamblardan söhbət açılır.*
***Açar sözlər:** muğam, məqam, çalğı alətləri, ansambl, musiqi, təşəkkül, ifaçılıq sənəti*

Azərbaycan xalq çalğı alətlərindən ibarət ansamblar və orkestrlər özünəməxsus çalarları olan, mədəni irsimizin danılmaz mədəniyyət abidələrindəndir. Hər zaman olduğu kimi, müasir dövrümüzdə də xalq çalğı alətlərimizin tədqiq edilib öyrənilməsi və xalq çalğı alətləri ansambl və orkestrlərinin tərkibinə salınması aktual mövzu olaraq bu sahədə çalışan elm adamlarının üzərinə düşən əsas vəzifələrdən biri kimi qalmaqdadır. İllərlə dəyişən, təkmilləşən və bugünkü formasını alan xalq çalğı alətlərimiz mənəvi həyatımızın ayrılmaz hissəsidir. Milli alətlərimizdə – tarda, kamançada, balabanda və sazda ifaçılıq uzun illərin ağır zəhmətidir. Bizim məqaləmizin əsas məqsədi də məhz milli alətlərimiz əsasında yaranan ansamblar haqqında məlumat vermək, onların təşəkkülü, formalaşması və inkişaf yollarına nəzər salmaqdır. Müasir dövrdə bu ansamblların quruluş xüsusiyyətləri, bədii-ifa imkanları, istifadə sahəsi, eləcə də onların təkmilləşdirilməsi və bərpasının öyrənilməsi için elmi yeniliyi sırasındadır.

Azərbaycan xalq çalğı alətlərindən ibarət ansamblar tərkibi və ifaçılıq xüsusiyyətlərinə nəzər yetirsək bəzi problemlərin bu gün də qaldığının şahidi olarıq. Ona görə də bu gün ansamblların tərkibində öz yerini möhkəmlədən və bir sıra milli alətlərin texniki bədii ifaçılıq xüsusiyyətləri, təkmilləşməsi, inkişaf mərhələləri kimi aktual problemlərin araşdırılması bir sıra elmi işlərin tədqiqat obyektinə çevrilməsinə gətirib çıxarmışdır.

Azərbaycanda xalq çalğı alətləri ansamblları və orkestrləri yarandığı gündən keçdiyi təkamül yolu bir çox tədqiqatçılar tərəfindən araşdırılmışdır. Misal olaraq, Kərim Kərimovun "Azərbaycan xalq çalğı alətlərindən ibarət orkestr" (Bakı 1959)", Oqtay Quliyevin "Azərbaycan xalq çalğı alətləri orkestri" (1960), Əvəz Rəhmətovun "Azərbaycan xalq çalğı alətləri və onların orkestrdə rolu"(1980), eləcə də Məcnun Kərimov, Səadət Abdullayeva, Abbasqulu Nəcəfzadə, Malik Quliyev və onlarla digər musiqişünas alimlərin kitabları və məqalələrinin işıq üz gördüyünü qeyd edə bilərik.

Orta əsrlər klassik poeziyasının, musiqişünas və miniatür rəssamlarının əsərlərindən məlum olduğu kimi, Azərbaycanda çoxlu sayda müxtəlif simli, nəfəsli, zərbli çalğı alətləri və bu alətlərin birliyindən yaranmış ansambllar olmuşdur. Belə ansamblların ilk nümunəsinə "Kitabi Dədə Qorqud" abidəsində rast gəlirik. Yazıya alınmış dastanın bir sıra boylarında ("Basat və Təpəgöz" boyunda), epizodlarında zurnaçılar və nağaraçılardan ibarət çalğı alətlərinin müşayiəti ilə xalqın el şənliklərində rəqs etdikləri təsvir edilir (9, s. 110).

İfaçılıq sənətimizin sonrakı – XIX əsrə doğru inkişaf mərhələlərində xalq çalğı alətləri ansamblllarının tərkibi əsaslı dəyişikliklərə uğramışdır. Əgər orta əsrlərdə xalq çalğı alətləri ansamblları əsasən ud, qanun, çəng, musiqar, ney və dəfdən ibarət idisə, sonradan bu ansamblların tərkibinə tar, kamança, saz, zurna, balaban, qoşanağara kimi alətləri daxil edilmişdir. XIX əsrdən aşıq dəstəsi və sazəndə dəstəsi olaraq iki qrupa ayrılır. Aşıq dəstəsinin əsas alətləri saz, balaban, zurna, qoşanağaradan, sazəndə dəstəsi isə xanəndə, tar və kamança ifaçılarında ibarət muğam üçlüyünü təşkil edir (10, səh.9-10).

Əsrin əvvəllərindən başlayaraq (XIX əsr) geniş vüsət alan muğam üçlüyü ilə yanaşı artıq təmayüllü ansamblllar yaranmağa başlamışdır. XX əsrdə respublikamızda ən tanınmış Xalq Çalğı Alətləri ansamblllarından aşağıdakıları göstərmək olar:

1. Xalq artisti Əhməd Bakıxanovun rəhbərlik etdiyi Xalq Çalğı Alətləri Ansamblı.
2. Xalq artisti Baba Salahovun rəhbərlik etdiyi Xalq Çalğı Alətləri Ansamblı.
3. Xalq artisti Əlibaba Məmmədovun rəhbərlik etdiyi Xalq Çalğı Alətləri Ansamblı.
4. Əməkdar artist Əhsən Dadaşovun rəhbərlik etdiyi Xalq Çalğı Alətləri Ansamblı.
5. Xalq artisti Həbib Bayramovun rəhbərlik etdiyi Xalq Çalğı Alətləri Ansamblı.
6. Xalq artisti Ceyran Haşımovanın rəhbərlik etdiyi "Lalə" Qızlar Ansamblı (11).

XIX əsrdən etibarən xalq çalğı alətləri ansamblllarımızın tərkibi genişlənməyə başladı. İlk peşəkar xalq çalğı alətləri ansamblı 1931-ci ildə yenə də Ü.Hacıbəylinin təşəbbüsü ilə yaradılmışdır. Bu ansamblın yaradılmasında, klassik muğamlarımızın təfsirində və təbliğində böyük tarzənimiz Əhməd Bakıxanovun

(1892-1973) böyük rolu olmuşdur. O, dahi bəstəkarımız Ü.Hacıbəyli ilə çiyin-çiyinə verərək milli sərvətimiz olan muğamın, musiqi alətlərimizin şahı olan tarın qorunub saxlanılmasında və inkişafında böyük xidmət göstərmişdir.

Məlumdur ki, Ə.Bakıxanov klassik muğamlarımızın bütün sirlərini, dərinliklərini mənimsəmişdi. O, gözəl muğam bilicisi idi. Dahi bəstəkarımız Ü.Hacıbəyli xalq professional ifaçıları – xanəndə və sazəndələri canlı ensiklopediya sayırdı. Bu baxımdan Ü.Hacıbəyli başqa tarzənlər kimi, Ə.Bakıxanovun ifasından da çox şey əxz etmişdir. Məsələn, Ə.Bakıxanov Ü.Hacıbəylinin xahişi ilə “Bayatı-Şiraz”, “Hümayun”, “Nəva” dəstgahlarını, “Nəva-Nişapür”, “Dəşti” və “Əbu-Əta” muğamlarını dəfələrlə ifa etmişdi. Xüsusilə dahi bəstəkar və musiqişünasın “Azərbaycan xalq musiqisinin əsasları” kitabını yazarkən Ə.Bakıxanovun canlı ifaçılığı bir əyani nümunə kimi Ü.Hacıbəyli üçün yardımçı olmuşdur. Ü.Hacıbəylinin təklifi ilə Ə.Bakıxanov muğamlarımızın yeni tədris proqramını tərtib etmişdi. Əgər əvvəllər tələbələrə cəmi beş muğam – “Rast”, “Çahargah”, “Şur”, “Bayatı-Şiraz”, “Segah” öyrədilirdisə, Ə.Bakıxanovun yeni proqramına “Mahur-Hindi”, “Bayatı Qacar”, “Dügah”, “Hümayun”, “Nəva”, “Rəhab”, “Şahnaz”, “Bayatı Kürd”, “Dəşti”, “Mirzə Hüseyn Segahı” və “Zabul Segah” kimi muğamlar da əlavə olunur [8, s. 18].

Əhməd Bakıxanovun ifaçılıq fəaliyyətinin ən parlaq səhifələrindən biri şübhəsiz onun xalq çalğı alətləri ansamblındakı işidir. Belə ki, 1931-ci ildə Ü.Hacıbəylinin təşəbbüsü ilə özündə təşəkkül tapmış Azərbaycan xalq çalğı alətləri ansamblı böyük yaradıcılıq yolu keçmişdir. Bu ansamblın yaradıcılığında, klassik muğamlarımızın təfsirində və təbliğində, repertuarının rəngarəngliyində Ə.Bakıxanovun əvəzsiz rolu olmuşdur. Ansamblın tərkibinə bas tar, saz, ud, kanon, qoşa-nağara, həmçinin qoboy və fortepiano daxil etmişdi.

Burada həmçinin ayrı-ayrı xalq və şifahi ənənəli professional musiqi janrlarından, xüsusilə muğamların quruluş xüsusiyyətlərindən, tədris prosesində Ə.Bakıxanovun təlim prinsiplərindən, yetirdiyi tələbələrdən söz açılır.

Beləliklə, Ə.Bakıxanovun rəhbərlik etdiyi ansamblda yaradıcılıq yolu keçmiş, püxtələşmiş Ə.Dadaşov (AzTRV QSC nəzdində 1960-cı ildə xalq çalğı alətləri ansamblı), B.Salahov (“Araz” XÇA ansamblı 1962 ildə AzRTV QSC nəzdində görkəmli tarzən Baba Salahovun rəhbərliyi altında yaradılmış, 1981 ildən “Araz” X.Ç.A. ansamblı adlandırılmışdır.), A.Məşədibəyov (“Azərbaycan tərənələri” 1953-cü ildə Həqiqət Rzayevanın təşəbbüsü ilə təşkil olunmuş, 1975-79-cu illərdə A.Məşədibəyov rəhbərlik etmişdir.) müstəqil ansambllara rəhbərlik etmişlər. Bu ansamblların hər birinin özünəməxsus dəsti-xətti, repertuarı, orijinal ifaçılıq üslubu olmuşdur. Ansamblın tərkibinə tar, saz, ud, kanon, qoşa-nağara, həmçinin qaboy və fortepiano daxil etmişdi.

Bu ansambl fəaliyyət göstərdiyi gündən indiyə kimi Azərbaycanın çox görkəmli xanəndələri məharətlə müşayiət edib. Fatma Mehrəliyeva, Rübabə Murad-

ova, Qulu Əsgərov, Əbülfət Əliyev, Hacıbaba Hüseynov, Sara Qədimova, Zeynəb Xanlarova sənətkarlar məhz bu ansamblın solistləri olublar. Ömrünün sonuna kimi yəni, 1973-cü ilə qədər yaratdığı ansambla rəhbərlik etmiş, dünyasını dəyişdikdən sonra həmkarları onun xatirəsini əbədiləşdirmək məqsədilə ansambla Əhməd Bakıxanovun adını vermişlər.

Azərbaycanda indiyə qədər bir çox xalq çalğı alətləri ansamblları olmuş və indi də vardır. Lakin ifaçılıq sənəmizin inkişafında Əhməd Bakıxanovun yaradıb ömrünün axırına qədər rəhbərlik etdiyi Azərbaycan Televiziya və Radiosunun Xalq Çalğı Alətləri Ansamblının öz yeri vardır. Bu gün Əhməd Bakıxanovun adını daşıyan həmin ansambl istedadlı tarzənimiz, respublikanın xalq artisti Möhlət Müslümovun rəhbərliyi ilə unudulmaz sənətkarımızın ənənələrini davam və inkişaf etdirmək yolunda əzmlə çalışır.

Qeyd etdiyimiz kimi, 1960-cı illərdə Əhməd Bakıxanovun tanınmış bir ansamblı vardı. Lakin bu illərdə xeyli kadr bolluğu yaranmışdı. Konservatoriyadan əlavə Bakıda, Sumqayıtda, Naxçıvanda, Lənkəranda və s. şəhər və rayonlarda orta ixtisas təhsilli musiqi məktəblərində ifaçılar yetişirdi. Bütün bu kadrların öz ifaçılıq ustalıqlarını artırmaq üçün hər hansı musiqi kollektivlərində işləmələrini təmin etmək məqsədilə Azərbaycan Televiziya və Radio Komitəsi nəzdində Ə.Bakıxanovun təşkil etdiyi ansambldan əlavə ikinci bir xalq çalğı alətləri ansamblının yaranması zərurəti meydana çıxdı. Nəğməkar şair Ənvər Əlibəyli və böyük bəstəkarımız Cahangir Cahangirovun təşəbbüsü ilə Əhsən Dadaşov (1924-1976) 1960-cı ildə yeni bir xalq çalğı alətləri ansamblı yaratdı.

Ə.Bakıxanovun ansamblının özünəməxsus ənənəsi vardı. Belə ki, ansambl əksər halda xalq yaradıcılıq qaynaqlarına – muğamlara, dəraməd, təsnif, rəng və xalq mahnılarına müraciət edirdi. Bəstəkar mahnıları, notlu əsərlərin ifası xalq çalğı alətləri orkestrinin üzərinə düşürdü. Orkestrin isə gündən-günə artan əsərləri çalmaq, xalqa təqdim etmək imkanı məhdud idi. Çünki həm dünya, Avropa, rus klassiklərinin, həm də Azərbaycan bəstəkarlarının yeni yaranan mürəkkəb janrlı əsərlərinin ifası da orkestrin öhdəsinə düşürdü. Məhz bu baxımdan yaranmış boşluğu qismən də olsa doldurmaq üçün Əhsən Dadaşov musiqi folkloru nümunələri ilə yanaşı, bəstəkar əsərlərinin repertuara salınmasına da ciddi əhəmiyyət verirdi.

Əhsən Dadaşov özündən əvvəlki klassiklərin və müasiri olan ustadların ifaçılıq üslubuna, ənənəsinə hörmətlə yanaşan, bununla belə öz yolu, dəst-xətti olan tarzən idi. O, özünəməxsus fərdi ifaçılıq xüsusiyyətləri, üslubu ilə seçilirdi. Bu orijinal üslub 1963-cü ildə onun yaratdığı xalq çalğı alətləri ansamblına da xas idi. Onun musiqisi bütöv, möhtəşəm, nizamlı olmaqla yanaşı, ən kiçik nüansları ilə birlikdə yadda qalırdı. Ə.Dadaşovda xalq musiqisinə bəstəkar təfəkkürü, duyumu ilə yanaşmaq qabiliyyəti vardı. Onun muğam və digər xalq musiqisi nümunələrində etdiyi improvizasiyalar bu sahədə yeni tapıntı idi.

Ansamblın bədii rəhbəri kimi Ə.Dadaşov Azərbaycan xalq çalğı alətlərinin hər birinin bədii texniki imkanlarını çox düzgün müəyyənləşdirə bilirdi. O, ansambla orijinallıq, yeni vüsət gətirmək, onun repertuarını daima təzələmək, qədim ifaçılıq ənənələrini yeni çalarlarla zənginləşdirmək üçün axtarışlar aparmaqdan yorulmamış, ifaçılıqda yeniliklər etməkdən çəkinməmişdir. Əhsən Dadaşovun rəhbərlik etdiyi ansamblın tərkibində əsasən milli xalq çalğı alətləri üstünlük təşkil edirdi ki, bu da onun ansamblını digərlərindən – Əhməd Bakıxanovun, Baba Salahovun ansambllarından fərqləndirirdi. Belə ki, sənətkar ilk dəfə olaraq ansambla ud daxil etmiş, tar, kamança, qanun, saz, nağara, zurna, balaban, bəm tar (tarın ən aşağı registrə malik növü; qalın, bəm səsli simli-dartımlı musiqi aləti), Avropa musiqi alətlərindən fortepiano, qaboy, klarneti əlavə etməklə o, ansamblda ahəngdarlıq, intonasiya müxtəlifliyi, tembr və ritm zənginliyi yaratmışdır. Ansamblda müşayiətedici parçaları alətlər arasında məharətlə bölüşdürən sənətkarın bacarığı sayəsində muğam, mahnı, eləcə də rəqs melodiyası müğənnilərin ifasında olduqca aydın və ifadəli səslənirdi.

Dünya şöhrətli bəstəkarımız Fikrət Əmirov Əhsən Dadaşovun ansamblının məziyyətləri haqqında yazırdı: "*Əhsən Dadaşovun yaratdığı xalq çalğı alətləri ansamblının repertuarı öz rəngarəngliyinə, yüksək temperament və ifaçılıq texnikasına görə başqa ansambllardan fərqlənir. Sevinirəm ki, ansambl təkcə respublikamızda deyil, onun hüdudlarından uzaqlarda da məşhurdur*" [4, s. 3].

Əhsən Dadaşovun yaradıcılıq prinsiplərindən biri də ansambla sənətə təzəcə qədəm qoymuş bacarıqlı gəncləri cəlb etməsində idi. O, eyni zamanda gənc müğənnilərə klassik üslubda oxumağın yollarını aydınlaşdırırdı. Onlara fərdi yaradıcılıq imkanlarını açmağa şərait yaradırdı. Əhsən Dadaşov ifaçıların üzərinə düşən məsuliyyəti belə ifadə edirdi: "*Bizim pis çalmağa ixtiyarımız yoxdur, çünki az-çox xalq məhəbbəti qazanmışıq. Bu məhəbbəti itirmək ölümə bərabərdir. Həm də bir dəfə pis çalarıq bağışlayarlar, ikinci dəfə pis çalarıq şübhələnərlər, üçüncü dəfə pis çalarıq şələ-küləmizi verərlər qoltuğumuza ki, çıxın gedin*" [6, s. 3].

Dünyasını çox tez dəyişən sənətkarın adı yaratdığı ansambla verilmişdir. Hazırda ansambl Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətinin Əhsən Dadaşov adına "Xatirə" xalq çalğı alətləri ansamblı adını daşıyır. 1964-cü ildən həmin ansamblın solisti kimi çalışan, tanınmış tarzən, Azərbaycan Respublikasının Xalq artisti Adil Bağırov 1976-cı ildən bu ansambla rəhbərlik edir.

Beləliklə, Ə.Bakıxanovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblının ardınca yeni-yeni kollektivlər yarandı. Belə ansambllardan biri də Azərbaycanda artıq yetkin, istedadlı bir musiqiçi kimi tanınan Baba Salahov (1923-1981) tərəfindən yarandı. Baba Salahovun yaradıcılığının 60-cı illərədək əhatə etdiyi dövr klassik ifaçılıq sənətinin spesifik cəhətlərini kifayət qədər mənimsəməsi, tarın texniki, bədii ifa imkanlarına bələd olması, muğam çalğısında virtuozluq səviyyəsinə yüksəlməsi ilə əlaqədar olmuşdur. O, ansamblı təşkil edəndə Azərbaycan Dövlət xalq çalğı alətləri ansamblında birinci tarzən – konsertmeyster idi.

Bildiyimiz kimi, orkestrin özünəməxsus xüsusiyyətləri, ifaçılıq metodu vardı. Belə ki, yalnız musiqi folkloru nümunələri – muğam və xalq mahnıları ilə öz repertuarını məhdudlaşdıra bilməzdi. Bu səbəbdən də Baba Salahov orkestrin nəzdində musiqi folkloru qaynaqlarımızı təbliğ etmək, xanəndə və sazəndələrə öz yaradıcılıq imkanlarını üzə çıxarmaq, muğam ifaçılığını inkişaf etdirmək üçün kiçik tərkibdə milli çalğı alətlərindən ibarət ansambl yaratmağı qərara alır.

Ə.Bakıxanovdan yetərincə muğam ifaçılığı təlimi alan, təşkilatçılıq qabiliyyətini mənimsəyən Baba Salahov təkcə ansamblı yaratmaq yox, həm də onu yaşatmaq və müxtəlif ansamblların bolluğunda onun özünəməxsusluğunu təmin etməyin əsas olduğunu anlayırdı. Bunun üçün gərgin axtarışlar aparmaq lazım olduğunu bilirdi. Məhz bunun müqabilində ansambl yarandığı az vaxt müddətində respublikamızın musiqi həyatında öz mövqeyini sübut etdi, xalqın rəğbətini qazandı.

Professor Malik Quliyev "XX əsrdə Azərbaycan xalq çalğı alətləri ansambllarının ifaçılıq xüsusiyyətləri" adlı dissertasiya işində Baba Salahov haqqında yazır: "*B.Salahovun ansambla gətirdiyi yenilik muğam ifaçılığında az işlənən, bəzən də tamam unudulmuş guşələri, rəngləri axtarıb üzə çıxarmaq, ansamblın ifaçılıq üslubuna uyğunlaşdırıb yeni oranjimanda səsləndirmək bacarığında idi. Bir sıra muğamların bütövlüyünü yaratmaq, məzmunu zənginləşdirmək üçün o özü yeni rənglər, dəramədlər yazırdı. Məsələn, "Rast" dəramədi, "İraq", "Zabul", "Hümayun" rəngləri və s. bilavasitə onun yaradıcı təxəyyülünün məhsuludur. B.Salahovun özünəməxsus yaradıcılıq metodu var idi. Ansamblın ifaçılıq imkanlarının nəzərə almaqla o, repertuara daxil etdiyi əsərlərin bəzən bir neçəsini eyni vaxtda məşq edirdi. Bunun düzgün həllini tapmaq üçün o, qabaqcadan proqram məşqlərinin ümumi prosesində akkomponimentin yerini müəyyənləşdirir və ona kifayət qədər vaxt ayırırdı. Bəzən də akkompanimentin məşqini axıra saxlayırdı, çünki məşqə başlamazdan əvvəl o, solistlər və ansamblın üzvləri ilə əsər haqqında bir qədər söhbət aparır, musiqinin oriyentasiyasını dəqiq müəyyənləşdirməkdə fikir mübadiləsi edir, onlarda ifa edəcəkləri musiqinin təfsiri haqqında aydın təsəvvür yaradırdı"* [7, s. 108-109].

B.Salahov ansamblda çoxsəslilik məsələsinə xüsusi diqqət yetirirdi. Buna nail olmağın əsas şərtlərindən birini o, ayrı-ayrı alətlərin, qrupların bir yerdə səslənməsində, harmoniyasında görürdü. Ustad tarzən ansamblda iştirak edən müxtəlif alətlərin ştrixlərinin düzgün ifası ilə yanaşı səslənmə tempinin bərabərliyinə, əsas və köməkçi xətlərin intonasiya dəqiqliyinə ciddi yanaşırdı.

Azərbaycan milli musiqi ənənələrinə sadiq qalan ansambl repertuarını əsasən musiqi folklor nümunələri hesabına zənginləşdirsə də bəstəkar əsərlərinə də biganə qalmamışdır. Səid Rüstəmov, Cahangir Cahangirov, Tofiq Quliyev, Şəfiqə Axundova, Emin Sabitoğlu, Ramiz Mirişli, Oqtay Kazımov, Elza İbrahimova və digər bəstəkarların mahnıları ansamblın müşayiəti ilə ən populyar müğənnilərimizin ifasında səslənmişdir. Eyni zamanda o, böyük zəhməti nəticəsində çox musiqiçilərə ümumxalq məhəbbəti qazandırmışdır: Əvəz Rəhmətov, Ağasəlim

Abdullayev (tarzənlər), Vəli Qədimov (klarnet), Aftandil İsrafilov (qarmon), Rafiq Hüseynov (bas tar), Fazil Osmanov, Elman Səmədov (kamança). Xanlar Hüseynov, Ramiz Əhmədov (nağara) və çoxlu sayda xalq xanəndələri, bəstəkar mahnıları oxuyan müğənnilər dediklərimizə misaldır.

1965-ci ildən ansamblda tar çalan, 1969-cu ildən isə konsertmeysterlik məsuliyyətini öz üzərinə götürən istedadlı tarzən Ağasəlim Abdullayev B.Salahov dünyasını dəyişəndən sonra 1982-ci ildən kollektivə rəhbərlik edir. Xatırladaq ki, 1981-ci ildən 1989-cu ilədək ansambl “Araz” xalq çalğı alətləri ansamblı adını daşıyırdı. 1989-cu ildən isə kollektivin xahişi ilə ansambl Baba Salahovun adını daşıyır. Bu gün ansamblın adı dünyanın çox uzaq ölkələrindən gəlir.

Haqqında bəhs etdiyimiz bu 3 ansambl əslində bir növ köhnəliklə yeniliyin sintezindən yaranmışdır desək yanılmarıq. Belə ki, əsrlər boyu milli musiqi mədəniyyətimizin inkişafına əvəzsiz xidmət etmiş musiqi alətlərimizin araşdırılaraq öyrənilməsi, onların bərpa edilərək yenidən səsləndirilməsi bu gün tariximizin tədqiqi baxımından çox əhəmiyyətlidir.

Yuxarıda adını çəkdiyimiz kollektivlərlə yanaşı qədim musiqi alətlərimizdən ibarət ansamblları da qeyd etmək istərdik, çünki xalqımızın milli sərvəti sayılan çalğı alətləri zənginliyi və müxtəlif növlüyü ilə seçilir. Onların əksəriyyəti XX əsrin sonlarında yaranmış, təkmilləşərək dövrümüzə gəlib çatmışdır. Məhz belə qədim alətlərdən ibarət ansamllardan biri “İrs” folklor ansamblı olmuşdur.

*“50 ilə yaxın yaşı olan “İrs” folklor ansamblının milli mədəniyyətimizin, adət-ənənələrəmizin qorunub saxlanılmasında və inkişafında böyük xidmətləri vardır. Adı çəkilən ansambl rəhbərliyi tərəfindən qədim musiqi alətlərini axtarıb-tapmış, onu təkmilləşdirmişdir. Qrupun yaradılmasında başlıca məqsəd yaddaşlarda yaşayan qədim el havalarını, xalq musiqisi örnəklərini, musiqi alətlərini, meydan-tamaşa oyun və məzhəkələrini axtarıb tapmaq, toplamaq, bərpa etmək və gələcək nəsillərə çatdırmaq olmuşdur. Ansambl qədim musiqi alətlərindən rübab, cürə saz, dilruba, çahar tar, laqqutu, tambur, çəganə və bu kimi onlarca qədim alətlərini tapıb, onları təkmilləşdirmiş, min cür əzab-əziyyətlərlə şəhərləri, kəndləri dolaşıb qədim xalq folklor nümunələrini toplamış, onların üzərində yenidən işləyərək xalqa çatdırmışlar*” [5, s.33-34].

“İrs” folklor ansamblının yaranmasında görkəmli musiqiçilər – bəstəkar Rəşid Nəsiboğlu və tarzən Sidqi Mustafayevin böyük əməyi olmuşdur. Əsası 1959-1960-cı illərdə qoyulan ansambl 1977-ci ildən rəsmi fəaliyyətə başlamışdır. Təəssüf ki, indi bu ansambl öz fəaliyyətini dayandırıb.

Daha bir qədim musiqi alətlərindən ibarət ansambl sənətşünaslıq üzrə fəlsəfə doktoru, xalq artisti Məcnun Kərimin (1945-2013) yaratdığı “Qədim musiqi alətləri ansamblı”dır. 1991-ci ildə Bakı Musiqi Akademiyasında “Qədim musiqi alətlərinin bərpası və təkmilləşdirilməsi” adlı Elmi laboratoriyanın yaradılmasında və fəaliyyətində istedadlı musiqiçinin böyük əməyi olmuşdur. Burada işlədiyi illər ərzində (1991-2013) Məcnun Kərim 11 qədim musiqi alətini – çəng, bərbət, çəqanə,

çoğur, tənbur, səntur, rübab, rud qopuz, nüzhə və müğnini bərpa edib səsləndirməyə nail olmuşdur. Alimi düşündürən əsas məsələ tarix, bədii və elmi mənbələrdə rast gəldiyi musiqi alətlərini canlandırmaq, onları həyata qaytarmaq idi.

Bu alətlərin real səsləndirilmə imkanları sayəsində ansambl yaradılmış və 2006-cı ildən "Qədim musiqi alətləri ansamblı" dövlət statusu qazanaraq uğurlu konsert fəaliyyətinə başlamışdır. Kollektiv beynəlxalq əhəmiyyətli müxtəlif tədbirlərdə, o cümlədən bir çox xarici ölkələrdə keçirilmiş Festival və elmi simpoziumlarda Azərbaycan musiqi mədəniyyətini layiqincə təmsil etmişdir.

Məcnun Kərimi vəfat etdikdən sonra – 2013-cü ildən bu ansambla onun tələbəsi olmuş Xalq artisti, Azərbaycan Milli Konservatoriyasının dosenti Munis Şərifov rəhbərlik edir. Onu da qeyd edək ki, Munis Şərifov Məcnun Kərimin bərpa etdiyi çəqanə alətinin yeganə ifaçısıdır.



***Munis Şərifov. Çəqanə alətində ifa***

"Azərbaycan Dövlət Qədim milli musiqi alətləri ansamblı" bu gün də işini davam etdirir. Ansambl Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi nəzdində fəaliyyət göstərir. 14 nəfər musiqiçini özündə birləşdirən bu ansambl özündən sonra yeni folklor ansambllarının yaranması üçün zəmin yaratmışdır. Əməkdar artist Nuriyyə Hüseynova, Xalq artisti Teyyub Aslanov və digər tanınmış xanəndələrimiz ansamblın solistləridir.

Müasir dövrdə də Azərbaycan musiqisini xalq çalğı alətləri olmadan təsəvvür etmək olmaz. Milli alətlərimizdə bu gün nə qədər müasir musiqi ifa olunsa da klassik musiqi ənənələrinin yaşadan yeni ansambllarımız yaranır, inkişaf edir, Azərbaycan klassik musiqisini bütün dünyada təbliğ edir. Belə kollektivlərdən biri də "Buta" instrumental ansamblıdır. Əvvəllər bu ansambl əməkdar artist, istedadlı müğənnimiz Aygün Bəylərin rəhbərlik etdiyi Şövkət Ələkbərova adına musiqi kollektivi adlanırdı. 2003-cü ildən mən bu ansamblda məqalə müəllifi fəaliyyət göstərməyə başlayıb və 2005-ci ildən "Buta" instrumental ansamblının bədii rəhbəridir.

Qeyd edək ki, ilk ansambl fəaliyyətinə 2001-ci ildə "Tənha" instrumental ansamblı ilə başlayıb, 2003-cü ildən "Buta" instrumental ansamblında çalışıb, hal-hazırda bu ansamblın bədii rəhbəri kimi fəaliyyət göstərir. Rəhbərlik etdiyi bu instrumental ansamblı ilə R.Qurbanov bir çox xanəndə və müğənniləri

peşəkarlıqla müşayiət edir, eləcə də Azərbaycanın milli musiqisi dünyanın bir çox ölkələrində layiqincə təmsil etməkdədir.

Beləliklə, Ə.Bakıxanovun rəhbərliyi ilə 1931-ci ildə fəaliyyətə başlayan ilk xalq çalğı alətləri ansamblından sonra yaranan ansamblar Azərbaycanın musiqi həyatında, musiqi mədəniyyətinin milli zəmin üzərində formalaşmasında və inkişafında klassik ifaçılıq sənətimizin təkmilləşdirilməsində, musiqinin bütövlükdə xalqın mənəvi sərvətinə çevrilməsində misilsiz rolu olmuşdur.

Nəticə olaraq qeyd etməliyik ki, bütün bu deyilənlər Azərbaycan xalq çalğı alətlərindən ibarət oxşar ansamblar arasında müəyyən paralellər aparmağa, o cümlədən Azərbaycanda xalq çalğı alətləri ansambllarının gələcək inkişafının əsas istiqamətlərini müəyyən etməyə imkan verir və yeni yaranacaq ansambl və orkestrlər arasında sağlam rəqabət üçün geniş imkanlar yaradır.

Respublikanın bütün musiqi ansambllarının üzvləri üzərinə düşən vəzifələri layiqincə həyata keçirməyə çalışır, professional ifaçılıq sənətini təkmilləşdirirlər. Ümid edirik ki, bundan sonra da onlar ifaçılıq mədəniyyətimizi daha da inkişaf etdirəcək, insanların zövqünü oxşayan musiqi nümunələri ilə yadda qalacaqlar.

Beləliklə, mədəniyyətinin ayrılmaz hissəsi kimi çalğı alətlərinin, bu alətlərdən ibarət ansamblların öyrənilməsi cəmiyyətin maddi və mənəvi həyatındakı dəyişikliklərin xüsusiyyətlərini göstərir, instrumental musiqi və ifaçılığın müxtəlif aspektlərinin tədqiqi, mövcud orkestr və ansamblların səslənməsinin zənginləşməsi yollarının axtarışı üçün əsas yaradır. Bu isə onu deməyə əsas verir ki, xalq çalğı alətləri orkestrləri, ansamblları və digər kollektivlər hələ uzun illər xalqın zövqünü oxşayacaq və ona xidmət edəcək.

**ƏDƏBİYYAT**


1. Bakıxanov Ə.M. Azərbaycan xalq rəngləri. – B.: İşıq, 1964, – 42 s.
2. Bakıxanov Ə.M. Azərbaycan ritmik muğamları. – B.: İşıq 1968, – 48 s.
3. Bakıxanov Ə.M. Muğam, mahnı, rəng. – B.: İşıq, 1975, – 33 s.
4. Əmirov F.M. Bəstəkar təbiətli tarzən. / "Kimyaçı" qəzeti. 1968, 5 aprel
5. İsmayılova Z. "İrs" musiqisi folklorumuzu yaşadır. // "Mədəni-maarif işi" №3, – s. 33-34.
6. Quliyev M. Əhsəndən nə qaldı. // "Azərbaycan müəllimi" qəzeti, 1968, 10 avqust, səh.4
7. Quliyev M. "XX əsrdə Azərbaycan xalq çalğı alətləri ansambllarının ifaçılıq xüsusiyyətləri" adlı sənətşünaslıq üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya. – B., 1998, – 138 s.
8. Məmmədbəyov D.İ. Muğam ustası Əhməd Bakıxanov. – B.: İşıq, 1966, – 42 s.
9. Nəcəfzadə A.İ. "Kitabi Dədə Qorqud" dastanlarında çalğı alətləri", – B.:, Elm və təhsil, 2017, – 264 s.
10. Rəhmətov M.Ə. Azərbaycan xalq çalğı alətləri və onların orkestrdə yeri. – B.: İşıq, 1980, – 105 s.

**Saytoqrafiya:**

11. http://www.e-derslik.edu.az/books/212/units/unit-1/page74.xhtml

**Rovshan GURBANOV**
Azerbaijan National Conservatory
*Head* Teacher of "Instrumental
mugham" department

## FORMATION AND DEVELOPMENT OF FOLK MUSICAL INSTRUMENT ENSEMBLES

***Abstract:*** *Folk musical instruments, which have changed and improved over the years and have taken their current form, are an integral part of our spiritual life. The main purpose of the presented article is to give a historical overview of ensembles created on the basis of national instruments, to consider their organization, formation and development. Here we talk about the first professional ensemble of folk instruments, created by Akhmet Bakikhanov in 1941 on the initiative of U. Hajibeyli, as well as about ensembles, the creation of which is associated with the names of Ahsan Dadashev and Baba Salakhov. The author also pays attention to ensembles of ancient musical instruments. The article also mentions ensembles that have arisen in our time.*

***Keywords:*** *mugham, makam, musical instruments, ensemble, music, organization, performance art*

**Ровшан ГУРБАНОВ**
Азербайджанская Национальная
Консерватория, старший преподаватель
отделение «Инструментальный мугам»

## ФОРМИРОВАНИЕ И РАЗВИТИЕ АНСАМБЛЕЙ НАРОДНЫХ МУЗЫКАЛЬНЫХ ИНСТРУМЕНТОВ

***Резюме:*** *Народные музыкальные инструменты, изменившиеся и усовершенственные с годами и принявшие свой нынешний вид, являются неотъемлемой частью нашей духовной жизни. Основная цель представленной статьи – дать исторический обзор об ансамблях, созданных на основе национальных инструментов, рассмотреть их организацию, становление и развитие. Здесь рассказывается о первом профессиональном ансамбле народных инструментов, созданным Ахметом Бакихановым в 1941 году по инициативе У. Гаджибейли, а также об ансамблях, создание которых связано с именами Ахсана Дадашева и Баба Салахова. Автор уделяет внимание и ансамблям старинных музыкальных инструментов. В статье упоминаются и ансамбли, возникшие в наше время.*

***Ключевые слова:*** *Мугам, макам, музыкальные инструменты, ансамбль, музыка, организация, исполнительское искусство*

**Rəyçilər:** professor Ağasəlim Abdullayev
professor Ağacəbrayıl Abasəliyev